# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Qəbələ Rayon Şöbəsinin əməkdaşları xidmətin yaranmasının ildönümünü qeyd etmişlər

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsinin əməkdaşları xidmətin yaranmasının üçüncü ildönümü münasibəti ilə ulu öndər Heydər Əliyevin şəhərin mərkəzi parkında ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri qoymuşlar.





Mərasimdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak etmişlər.

Tədbir daha sonra xidmətin inzibati binasında davam etdirilmişdir. Xidmətin rəisi polkovnik leytenant Niyaz Məmmədov çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə imzaladığı 13 fevral 2012-ci il tarixli Fərmana əsasən şəhər və rayonlarda hərbi komissarlıqların ləğv edilərək Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının ordu quruculuğunda islahatların uğurla davam etdirilməsinə bariz nümunə olduğunu diqqətə çatdırmış və bu sahədə çalışan hər bir zabitdən öz işinə ciddi məsuliyyət tələb edildiyini vurğulamışdır. Niyaz Məmmədov xidmətə olan dövlət qayğısından ətraflı bəhs etmiş və xidmətin əməkdaşlarına işlərində uğurlar arzulamışdır.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar**
**S. Umuyevindir.**

# Heydər Əliyev Mərkəzində məktəblilərin açıq dərsləri davam edir

Heydər Əliyev Mərkəzində təşkil olunan açıq dərslərdə rayon məktəbliləri tərəfindən ulu öndərin zəngin inrsinin öyrənilməsi davam etdirilir. Fevral ayının birinci yarısında təşkil edilmiş dərslərdə Çarxana, Abrıx, Kiçik Pirəli, Kötüklü, Nic qəsəbə 1, 2, 3 və Qəbələ şəhər 3 saylı tam orta məktəblərindən gəlmiş 124 nəfər, hər dərsdə 35-40 nəfər şagird olmaqla dərslər yüksək səviyyədə təşkil edilmişdir.

Dərsləri təcrübəli müəllimlərdən Gülər Müzəffərova, Zamiq Əzizov, Vaqif Əhmədov tədris etmişlər. «Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın qurucusu və memarıdır» mövzusuna həsr olunan dərslərdə məktəblilərə ümummilli liderin həyat və fəaliyyəti, Azərbaycanda siyasi hakimiyyətdə olan hər iki dövründə ölkənin sosial-iqtisadi inkişafı, əhalinin rifah halının yüksəldilməsi üçün həyata keçirdiyi tədbirlər barədə geniş məlumat verilmişdir. Şagirdlər həmçinin Azərbaycan xalqının əzəli arzusu olan müstəqilliyin qazanılması, onun qorunub saxlanılması üçün Heydər Əliyevin apardığı daxili və xarici siyasət haqqında müəllimlərdən ətraflı məlumat almışlar.

Məktəblilər Heydər Əliyev Mərkəzinin ekspozisiya salonuna baxış keçirmiş və burada böyük şəxsiyyətin həyat və fəaliyyətini əks etdirən foto-stendlərlə və bir sıra rəsmi sənədlərlə tanış edilmişlər.

**Heydər Əliyev Mərkəzi.**

# 21 fevral—Beynəlxalq Ana Dili Günüdür

Hər il fevral ayının 21-i Beynəlxalq Ana Dili Günü kimi qeyd edilir. Bu gün 1999-cu ilin noyabrında keçirilmiş YUNESKO-nun Baş Konfransının qərarı ilə elan edilmişdir.

Dil hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən mühüm və ən güclü vasitədir. Hər bir insan öz ana dilini yaxşı bilməli və onu qorumalıdır. Ana dili insanın mənəvi aləminin zənginləşdirilməsində, dünyagörüşünün genişlənməsində, mükəmməl təhsil almasında, öz soydaşları ilə ünsiyyət qurmasında mühüm rol oynayır. Ana dili millətin özünəməxsusluğunu qorumaqla yanaşı, tərcümə vasitəsilə başqa xalqların mədəni irsi ilə tanış olmağa, onlarla ünsiyyət qurmağa imkan yaradır.

Azərbaycanda isə Ana Dili Günü ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il avqustun 9-da imzaladığı fərmana əsasən hər il avqustun 1-də qeyd edilir.

**«Qəbələ».**

# Azərbaycanın qüruru

Xalqımızın fəxri, qürurla yad etdiyi ölməz sənətkarımız Bülbülün yadigarı olan Polad Bülbüloğlu Azərbaycanın tanınmış musiqi xadimidir. Görkəmli mədəniyyət fədaisi, ictimai və siyasi xadim Polad Bülbüloğlu fevral ayının 3-də cənab Prezidentimizin sərəncamı ilə "Şərəf" ordeninə layiq görülmüş, 4-də isə Bakıda yubileyi təntənəli şəkildə qeyd olunmuşdur.



Azərbaycan tarixində özünəməxsus yaradıcılığı olan dahi sənətkarımızın 70 illik yubileyi münasibətilə Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində geniş tədbir hazırlanmışdır. Azərbaycan mədəniyyətinə böyük töhfələr bəxş edən sənətkarımız Polad Bülbüloğluya həsr olunmuş tədbiri giriş sözü ilə muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Xalis Məmmədov açmışdır.

Sənətkarımızın rayonumuzda, o cümlədən muzeyimizdə qonaq olarkən çəkilmiş xatirə şəkillərindən ibarət sərgi də təşkil olunmuşdur. İştirakçılar səmimi, sadə Azərbaycan oğlu haqqında şirin xatirələr söylədilər. Polad Bülbüloğlu Azərbaycan Respublikasının Mədəniyyət Naziri vəzifəsində çalışarkən 2000-ci il sentyabrın 13-də və 2005-ci il avqustun 4-də muzeyimizdə qonaq olmuş, muzey işçiləri ilə səmimi söhbətlər etmişdir.

**Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi.**

***Polad Bülbüloğlu—70***

# Fədakar insan, nəğməkar və bəstəkar

Azərbaycan xalqının çoxəsrlik tarixində bir çox görkəmli mədəniyyət və incəsənət xadimləri olmuşdur ki, onlar öz sənətləri ilə təkcə ölkəmizdə deyil hətta bütün dünyada tanınmışlar. Polad Bülbüloğlü məhz belə fədakar insanlardandır ki, o, bütün ömrünü bu sahəyə həsr etmiş və doğma xalqına əvəzolunmaz töhfələr vermişdir.

Xalq artisti, bəstəkar, Azərbaycanın sabiq mədəniyyət naziri, hal-hazırda Azərbaycanın Rusiyada fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu 1945-ci il fevralın 4-də Bakıda təkrarolunmaz səs sahibi olan Bülbülün ailəsində dünyaya göz açıb. Elə Bülbül soyadını da atasının ləqəbindən götürüb. 1973-ci ildə Əməkdar İncəsənət Xadimi, 1982-ci ildə Azərbaycan SSR Xalq Artisti adına layiq görülüb. Polad Bülbüloğlu dillər əzbəri olan bir sıra mahnıların ifaçısı və müəllifi kimi ölkəmizin hüdüdlarını aşaraq, demək olar ki, bütün dünyada tanınmışdır. O, 50-dən çox bədii filmə musiqi bəstələmiş, "Qorxma mən səninləyəm" filmində isə baş rolda özü oynamışdır. Hal-hazırda Moskvada mötəbər bir vəzifədə işləməsinə baxmayaraq hələ də musuqi sənəti ilə məşğuldur. 2010-cu ildə onun yeni albomu çıxmışdır. Bu albomda Azərbaycan xalq mahnılarından ibarət 14 mahnı toplanmışdır.

Polad Bülbüloğlu 13 sentyabr 2000-ci və 4 avqust 2005-ci İllərdə Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin qonağı olmuşdur. Muzeylə ətraflı tanış olduqdan sonra o, kollektivlə səmimi söhbət etmiş, muzeyin rəy kitabına ürək sözlərini qeyd etmişdir. 29 iyun 2013-cü ildə Qəbələnin MDB ölkələri çərçivəsində Mədəniyyət Mərkəzi elan olunması münasibəti ilə keçirilən tədbirdə iştirak edən Polad Bülbüloğlu yenidən rayonumuzda olmuşdur. Tədbirin sonunda Polad Bülbüloğlu Qəbələ Rayon-Tarix-Diyarşünaslıq Muzeyinin direktoru, Əməkdar Mədəniyyət İşçisi Xalis Məmmədovla şəxsən görüşüb səmimi söhbət etmiş və keçmiş həmkarının mədəniyyət sahəsindəki əməyini yüksək qiymətləndirmişdi.

Biz Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin kollektivi, başda Xalis Məmmədov olmaqla vətənimizin fəxr və qürur mənbəyi olan bu böyük sənətkarı 2015-ci ilə təsadüf edən 70 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür və can sağlığı arzulayırıq. Qoy xalqımızın bu fədakar və nəğməkar oğlunun səsi daha uca zirvələrə yüksəlsin!

**Tahirə ŞƏFİYEVA,**
**rayon-tarix-diyarşünaslıq muzeyinin əməkdaşı.**